Aqrar Xidmətlər Agentliyi

# Kartof gövdə nematodu

## ( Ditylenchus destructor Thorne)



088-588
axa.gov.az

# Zərərli orqanizm haqqında

Kartof gövdə nematodu mikroskopik dairəvi qurd olub bitkinin yeraltı orqanlarını zədələməklə zərər vurur.Nematodla yoluxmuş yumrularda tipik əlamətlər müşahidə olunur: qabıq quruyur, tündləşir və metal parıltısı alır. Yoluxma yerinin özü isə qismən içəri basılmış olur və əllə toxunduqda isə boşluq hiss olunur. Zədələmiş qabıq altındakı lətli hissə isə çürüyür. İnkişafının bütün mərhələlərində nematod qurda oxşar forması dəyişmir. Zərərverici yumrulara iki üsulla keçir: birinci halda sirayətlənmiş ana bitkinin gövdəsinə keçərək,ikinci halda torpaqdan. Saxlanma yerlərində temperatur $5^0$C –dən yuxarı, rütubət normadan artıq olarsa yumruların zədələnməsi artır, əksinə düzgün saxlama şəraitində isə saglam yumruların zədələnməsi baş vermir.

# Mübarizə tədbirləri

-Karantin tədbirlərinə ciddi əməl edilməlidir;

-Saglam əkin materialından istifadə etmək;

-Saxlama yerlərinə yalnız sağlam yumrular yığılmalıdır;

-Kartof əkini üçün səmərəli əkin dövrüyyəsində sələfləri dənli bitkilər və xaççiçəklilər olmaqla 4-5 il keçdikdən sonra təkrar olunması məsləhət görülür.



## Zədəsi